***2021-ci il ərzində respublikamızın əldə etdiyi uğurlu nəticələr, inkişaf göstəricilərinin davamlı olaraq yüksəlməsi həyata keçirilən siyasətin, aparılan islahatların real həyatda təsdiqini əks etdirib, sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı inkişaf üçün etibarlı zəmin yaradıb. Təsadüfi deyildir ki, dünya qlobal maliyyə və iqtisadi böhran şəraitində inkişaf edən bir çox dövlətlər ciddi çətinliklərlə üzləşdikləri halda, Prezident İlham Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdırıb, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam icra edilib, iqtisadiyyatımız artıb. Bütün bunlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri xüsusi önəm kəsb edib.***

# İqtisadi uğurlar dərin islahatların nəticəsidir



Dövlət Statistika Komitəsi ötən ilin yekunları ilə bağlı makroiqtisadi göstəricilər haqqında hesabatında bildirilir ki, bu dövrdə Azərbaycanda 92,9 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 5,6 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 7,2, neft-qaz sektorunda 1,8 faiz artıb.

Hesabat dövründə ÜDM-in 42,5 faizi sənaye, 10,1 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 6,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,9 faizi tikinti, 5,9 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 1,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə, 17,2 faizi digər sahələrdə istehsal edilib. Məhsula və idxala xalis vergilər ÜDM-in 8,4 faiz səviyyəsinə çatıb. Əhalinin hər nəfərinə isə 9269,3 manat əlavə dəyər düşüb.

Ötən il ölkə üzrə 54,5 milyard manatlıq sənaye məhsulları istehsal edilib ki, bu da 2020-ci ildəkindən 5,2 faiz çoxdur. Ümumilikdə bu dövrdə sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 18,9 faiz artıb. Sənaye məhsullarının 64,5 faizi mədənçıxarma, 29,9 faizi emal, 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub. Mədənçıxarma sektoru üzrə neft hasilatı 0,1, əmtəəlik qaz hasilatı 23 faiz artıb.

**(ardı 5-ci səhifədə)**

# İqtisadi uğurlar dərin islahatların nəticəsidir



(əvvəli 1-ci səhifədə)

Emal sektorunda isə əczaçılıq məhsullarının istehsalı 58,3, tikinti materiallarının istehsalı 80,6, maşın və avadanlıqların quraşdırılması, təmiri işləri 46,7, tütün məmulatlarının istehsalı 54, toxuculuq sənayesi məhsullarının istehsalı 26,8, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 29,8, kağız və karton istehsalı 26,5, rezin və plastik kütlə məmulatlarının istehsalı 17,4, neft məhsullarının istehsalı 13,4, hazır metal məmulatlarının istehsalı 17,4, kimya sənayesi məhsullarının istehsalı 25,5, metallurgiya sənayesi məhsullarının istehsalı 16,9, kompüter, elektron və optik məhsulların istehsalı 8,3, qida məhsullarının istehsalı 10,2, içki istehsalı 2,3, mebel istehsalı 24,8, avtomobil qoşqu və yarımqoşquların istehsalı 21,3 faiz artmış, ağacın emalı və ağac məmulatlarının istehsalı 38,3, geyim istehsalı 21,7, poliqrafiya məhsullarının istehsalı 45,2, digər nəqliyyat vasitələrinin istehsalı 92,6, maşın və avadanlıqların istehsalı 9,1, elektrik avadanlıqlarının istehsalı 11,2 faiz azalıb.

Dövlət Statistika Komitəsinin hesabatına əsasən, il ərzində əsas kapitala 16 milyard 127 milyon manat vəsait yönəldilib. İstifadə olunmuş ümumi vəsaitin 65,3 faizi məhsul istehsalı və 28,3 faizi xidmət obyektlərinin, 6,4 faizi yaşayış evlərinin tikintisinə sərf edilib. Yeri gəlmişkən, 73,1 faizi daxili sərmayələr olan bu vəsaitlərin 68,3 faizi bilavasitə tikinti-quraşdırma işlərində xərclənib.

Son illər ölkədə investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması və qeyri-neft sektorunun inkişaf etdirilməsinə xüsusi önəm verilib. Bütün bunlarla bərabət, sahibkarların ixrac potensialının gücləndirilməsi, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi də diqqət mərkəzində saxlanılıb.

Hazırda respublikada qeyri-neft sektorunun şaxələndirilməsi, qeyri-neft sənayesinin inkişafı, Azərbaycan məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi məqsədilə intensiv tədbirlər həyata keçirilir. Keçən il ölkə üzrə neft-qaz sektoruna 5 milyard 765,5 milyon manat vəsaitin yönəldilməsi də, məhz bunun nəticəsidir. Yeri gəlmişkən, qeyri-neft-qaz sektorunun inkişafına yönəldilən 10 milyard 361,5 milyon manat vəsaitin 1 milyard 153 milyon manatından (ümumi sərmayənin 9,7 faizindən) qeyri-neft-qaz sənayesi sektorunda istifadə olunub.

Bu dövrdə əsas kapitala 4 milyard 332,2 milyon manat xarici kapital da yatırılıb. Həmin vəsaitin 91,6 faizi Birləşmiş Krallıq, ABŞ, Yaponiya, Türkiyə, Norveç, İsveçrə, Malayziya, Rusiya, Fransa, İran və Vircin adaları investorlarına məxsus olub.

Dövlət Statistika Komitəsi 2021-ci ilin 11 ayı üzrə ölkədə muzdla işləyənlərin orta aylıq əməkhaqqı barədə də məlumat açıqlayıb. Bildirilib ki, Azərbaycanda keçən ilin yanvar-noyabr ayları üzrə muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2020-ci ilin eyni dövrünə nisbətən 2,9 faiz artaraq 724,1 manat təşkil edib. Əhalinin ümumi gəlirlərinə gəldikdə, həmin məbləğ ötən il 57,2 milyard manata çatıb ki, bu da 2020-ci ilə nisbətən nominal ifadədə 2,6 faiz çoxdur.

Son 18 ildə Azərbaycanın iqtisadi potensialının güclənməsi, reallaşdırılan diversifikasiya siyasəti, müasir texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən yüzlərlə müəssisənin fəaliyyətə başlaması təbii ki, ölkəmizin xarici ticarət əlaqələrində də müsbət meyillərə təkan verib. Belə ki, xarici iqtisadi əlaqələrin coğrafiyası genişlənib, ticarətin əmtəə strukturu təkmilləşib.

Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsində önəmli rol oynayan məsələlərdən biri də respublikamızın nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlıdır. Elə buna görə də həyata keçirilən tədbirlər və qlobal miqyaslı təşəbbüslər ölkəmizin sosial-iqtisadi inkişafına əsaslı töhfə verməklə, Azərbaycanı mühüm nəqliyyat qovşağına və dəhlizlərin keçdiyi məkana çevirib.

Son illər ərzində ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilib. Avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirib.

Həyata keçirilən bütün bu tədbirlər nəticəsində hesabat dövründə Azərbaycanın xarici ticarət əlaqələrində də müsbət nəticələr qeydə alınıb. Məlumata görə, ötən ilin 11 ayı ərzində gömrük orqanlarında qeydiyyatı aparılan, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatmayan ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilən dəyəri də nəzərə alınmaqla ölkənin xarici ticarət dövriyyəsinin dəyəri 30 milyard 746,3 milyon dollar təşkil edib. Ticarət dövriyyəsinin dəyər ifadəsində 20 milyard 336,4 milyon dollarını (66,1 faizini) ixrac, 10 milyard 409,9 milyon dollarını (33,9 faizini) idxal məhsulları təşkil edib ki, bu da 9 milyard 926,5 milyon dollarlıq müsbət ticarət saldosu deməkdir.

Xarici ticarətdə digər mühüm fakt ixracda qeyri-neft məhsullarının xüsusi çəkisinin artmasıdır. Hesabatda bildirilib ki, ötən ilin 11 ayı ərzində Azərbaycandan 2 milyard 359,8 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunub. Bu isə əvvəlki ilin müvafiq dövrünün analoji göstəricilərindən faktiki qiymətlərlə 44,1, real ifadədə isə 33,8 faiz çoxdur.

*"Xalq qəzeti"*

Xalq qəzeti .- 2022.- 30 yanvar.- S.1;5.